# Azərbaycan - Fransa münasibətləri

## “Ermənilər kimlərdir” sualının cavablandırılmasına dair



Abbas MUSA



əvvəli ötən sayımızda

***Bu hadisə ilə bağlı ən azı onu qeyd etmək lazım gəlir ki, əgər Həzi Aslanovun ordusu hərəkətini davam etdirmiş olsa idi, müharibə tez bir zamanda başa çatacaqdı. Bu yol ordunun aradan qaldırılmasının əsas səbəblərindən biri olmuşdur, deyə bilərik.***

***Bu yerdə yenə də unudulmaz Yusif Məmmədəliyevi - böyük xilaskar alim olaraq xatırlamamaq, Allah Ona qəniqəni rəhmət eyləsin, dəməmək günah olar. Müharibədən sovet dövlətini qalib çıxaran Azərbaycan xalqı müharibədən sonra sovet dövləti tərəfindən nə qədər təhqirlərə məruz qoyuldu, sanki sovet dövlətinə rəhbərlik edənlər onun müharibədən qalib çıxmasını istəməmişlər. Yenə də şükr etməliyik ki, xalqımız qürurverici qələbəni ortaya qoya bilmişdir, açıqlanmasada, səssiz - səmirsiz adını II D.M.-nə “qalib” olaraq yazdıra bilmişdir. Zaman da bildirəcəkdir!***

Tarixdə rast gəlinməyən hallardan biri də bu olmuşdur ki, bir qisim erməni sovet ordusunda olub almanlara qarşı vuruşda iştirak edib, digər bir qismi isə eyni zamanda alman ordusunda iştirak edib, sovetə qarşı vuruşmuşdur, bir-birlərinə hərbi sirrləri ötürməklə ... ; öz şəxsi ad - sanlarını qaldırmaq üçün; kim qalib gələrsə, “biz sizinlə olmuşuq” desinlər, dünyada seçgi proseslərində etdikləri kimi.

Erməni torpaqları (əgər olubsa) son 100 ilə qədər olmuş dünya tarixçilərinin əsərlərində (keçmiş və indiki xəritələrində) varmı? Axı onlar özlərini ilkin yaranan insan, ilkin dövlət yaradan millət elan edirlər ....o dövrlərl bağlı qalaq-qalaq kitablar yazırlar.

Kimlər Moskvaya donoslar yazırdı? – Ermənilər azərbaycanlılar adı altında. İndi də bu üsullardan istifadə edib B/x təşkilatlara yazırlar. Budur, D.Tramp ermənilərin Türkiyədə soyqırımına məruz qaldıqlarını təsdiqlədiyini bildirir. Ondan soruşmaq olar: Xilafətin aradan qaldırılmasında iştirakı açıqlanandan sonra ərəb xalqı tərəfindən səhralara qovulan erməniləri ölümdən xilas etmələri ilə yanaşı, Türkiyəyə toplayaraq türklərin özlərindən də yaxşı yaşadı-lan ermənilərin, uzun (500 il) müddətdən sonra xarici dövlətlərlə əlaqələr yaradaraq (məs. Fransa dövləti ilə) bütün etika qaydalarını pozaraq, 300 il öncə Türkiyənin çar Rusiyası ilə apardığı müharibədə ona xəyanətlər edənlər (ancaq dövlət tərəfindən açıqlanmayan), eləcə də I D.M.-də İstambulda yeraltı lağım açmaqla sarayı zəbt etmək kimi ağlasığmaz həyatı yaşa-maqla Türkiyədə hakimiyyəti əllərinə almaq istəyən ermənilər kim olurlar? Bu “sadiq bəndə-lərin” son 300 il ərzində Türkiyədə və digər türk dövlətlərində törətdikləri gizli, yarım gizli xəyanətlərdən onun xəbəri varmı? Əgər bu xəyanətlərin az bir qismini kimlərsə ABŞ-da törətmiş olarsa, onlara qarşı onun münasibəti necə olar? Türkiyədə ancaq əli silahlı ermənilər nəzarət altına götürülmüşlər.

***Karonavirus xəstəliyinin qorxusunu yaşayırıq, dözürük. Trampın sözlərinə isə dözmək olmur, açıq-aşkar türk xalqına qarşı təhqirdir. Türkiyədə soyqırıma ermənilər türklər tərəfindən deyil, türklər ermənilər tərəfindən soyqırıma məruz qoyulmuşlar. Belə ki, ermənilər, I D.M.-də yaşadıqları ölkəyə - Türkiyəyə qarşı Fransa xətti ilə hərbi kəşviyyat xarakterli satqın-lıqları ilə yanaşı, silahlanaraq, Türkiyəyə düşmən qüvvələr tərəfində, Türkiyə ordusuna qarşı vuruşmuş və eləcə də, imkan tapan kimi uşaq - qoca, kişi - qadın demədən dinc əhaliyə qarşı kütləvi qırğınlar törətmişlər. Son nəticədə, Türkiyə ordusu əli silahlı ermənilərə qarşı çıxış etməyə məcbur olmuşdur. Yeri gəlmişkən, bu gün Azərbaycan dövləti ermənilərlə belə bir müharibəni yaşayır.***

***Türkiyədə ermənilərin öldürdükləri türklərin sayı, öldürülən ermənilərin sayından qat-qat çox olmuşdur.***

Türk dünyasının bugünkü günü - Qərb dövlətlərinin Türk dünyasına olan münasi-bətlərinin vəziyyəti onu deyir ki, Qərb dövlətlərinin onlara qarşı apardıqları I D.M.-si hələ qurtarmamışdır, ancaq formasını dəyişmişdir - ancaq gizli, yarım gizli formaya keçmişdir.

Türkiyədə ermənilərin əməlləri ilə bağlı baş verən hadisələri “erməni soyqırımı” yox, ermənilərin Türkiyəyə (eləcə də yaşadıqları digər dövlətlərə) xəyanətləri kimi - xəyanətlə-rindən doğan yerli millətlərin (Türkiyədə türklərin) soyqırıma uğradılması kimi qiymətlən-dirilməlidir. Belə ki, onlar bu həyatı əvvəllərdə yaşadıqları ölkələrdə də yaşamışlar, qovul-muşlar, gələcəkdə də yaşayacaqlar, çox güman ki, Rusiyada da, əgər o (Rusiya) bunu görməməkdə davam edərsə. Əks halda, yəni davam etməzsə dünyada terrorçu erməni olmaz, dünya terrorsuz olar - ədalətli olar. Terrorist dünyası - qoçular dünyası deməkdir.

Türkiyədə “sadiq bəndə” kimi qiymətləndirilən erməni paşaların açıq xəyanətləri, irəlidə də deyildiyi kimi, ilkin olaraq, Avropaya ayaq açmış çar Rusiyası ordusunun Fransa dövlətinin xətti ilə Türkiyəyə qarşı yönləndirilən müharibədə aşkarlanmışdır. Rusiya ordu-sunu Türkiyənin tabeliyində olan Yunanıstana daxil edərkən, erməni paşaların (ordu rəhbərlərinin) xəyanətləri, erməni əsgərlərin türk əsgərlərini arxadan məhv etmələri və Rus ordusuna daxil edilmiş Fransa ermənilərinin xətti ilə hərbi məlumatların Rusiya ordu rəhbərliyinə ötürülməsi həll edici olmuşdur. Görəsən bu hərbi əməliyyatın müəllifi kim olmuşdur: Fransa dövləti, yoxsa erməni terroristlər olmuşlar. Türkiyə dövlət başçısının heç bir tədbir görməməsi onları daha da qızışdırmışdır (bəlkə də onu hədələmişlər).

***Onu da qeyd etməliyik ki, ermənilər təkcə Türkiyə və Azərbaycan türkünə qarşı deyillər, həm də digər türklərə qarşı olmuşlar və bu gün də qarşıdırlar. İrəlidə deyildiyi kimi Özbəkistana daxil olan sovet ordusunun Fərqanə vadisində əldə etdiyi qələbədən sonra istirahətə dayanan ordunun tərkibində olan ermənilərin evlərə daxil olaraq, silahsız dinc əhalini bir nəfər kimi qırıb tökməsi faktdır. Müqəddəs ideyalar uğrunda mübarizəyə qalxan insanlar arasında bellərinin yer alması yolverilməzdir.***

***Sovet dövləti qurulanda Qazağıstana dövlət başçısı təyin olunan erməni əsilli Mirzo-yan adlı birisi hər il on min ziyalı insanın siyahısını Kremlə göndərərək onların məhv edil-məsinə razılıq alırdı. Belə bir dövlət təbii olaraq çox yaşaya bilməzdi, özü - özünü yıxmalı idi.***

Deyildiyi kimi - çar Rusiyasının Osmanlı imperiyasına qarşı ilk müharibəsində, əsasən erməni xəyanəti (satqınlığı) nəticəsində, demək olar ki, Türkiyə ordusu tarixində birinci dəfə məğlubiyyətə, özü də əsgərlərin soyqırımına uğradılmışdır və bu da bir sıra dövlətlərin, o cümlədən Rusiyanın marağında olmuşdur. Belə ki, Rusiya bu uğurundan sonra gələcək planlarının da uğurla başa çatdırılması istəyi ilə dünyadan erməniləri davamlı olaraq Rusiyaya toplamağa başlayır.

**_Erməni torpaqları (əgər olubsa) son 100 ilə qədər olmuş dünya tarixçilərinin əsərlə-rində (keçmiş və indiki xəritələrində) varmı? Axı onlar özlərini ilkin yaranan insan, ilkin dövlət yaradan millət elan edirlər ....o dövrlərl bağlı qalaq-qalaq kitablar yazırlar_**

Türk millətinin dövlətinin vətəndaşı olan ermənilərin ona qarşı açıq - aşkar törətdikləri ikinci soyqırımını I.D.M. dövründə yaşamışdır. Bu dövrdə ermənilər daha da “irəli gedərək” silahlanıb açıq-aşkar Türkiyə ordusuna qarşı vuruşmaqla yanaşı, hər fürsətdə silahsız dinc əhalinin məhv edilməsinə başlayırlar, hətta, onlara havadarlıq edənlərə güvənərək, Türkiyədə hakimiyyəti əllərinə almaq eşqinə düşürlər və buna İstambulda dövlət sarayına yeraltı lağım açmaqla başlayırlar. Türklərin bundan xəbər tutduqlarını duyan silahlı ermənilər, toplanıb Türkiyəni Azərbaycan istiqamətində tərk edirlər, yol boyu silahsız insanları hətta millətindən asılı olmayaraq, kütləvi halda qırıb tökürlər, Yerrəvan şəhərini ələ keçirirlər, əhalini qırıb qurtarırlar.

***Terrorist ermənilərin digər millətlərdən əsaslı fərqi də bundadır.***

***Dinc görünən ermənilərin bu gün də Türkiyədə heç bir təzyiqə rast gəlmədən yaşamaları onların “soyqırıma uğradılmaları” bağırtılarını faktiki olaraq heçə endirir.***

***Bir də soruşmaq olar:ermənilər bu qədər silahı haradan əldə edirdilər? Eləcə də bu gün silahları haradan əldə edirlər?***

Krasnodardan ermənilərin qovulması və bizim bu hadisəyə münasibətimiz necə olub:- “Yazıq ermənilər”, bu gün də Rusiyadan qovulurlar. Bu “yazıq ermənilər”in nə təqsiri var, axı rusların özləri onları bellərinə mindirib gətirmişlər, dolandırırlar, qan damarlarını da ermə-ni-lərə sordururlar, Türkiyə türkləri kimi.

İndiki dövrə qayıdaraq:

Real olsa da inanmaq olmur ki, BMT Baş Assambleyasında Dağlıq Qarabağla bağlı qəbul olunmuş qərarını dünyanın iri dövlətlərinin təmsil olunduqları BMT Təhlükəsizlik Şurası bir kənara qoyaraq, çəkinmədən açıq - aşkar baş vermiş hadisəni təhrif edib, onu həll-edilməz hala salır. Belə olan halda ATƏT-in Minsk qrupunun həmsədrləri üçlüyü - Fransa, Rusiya və ABŞ Dağlıq Qarabağ münaqişəsinin ədalətli və dinc yolla nizamlanmasında ma-raqlı ola bilərlərmi? Onların dövlət maraqları buna yol verirmi? Bu kimi faktlar müasir dün-yanın necə ədalətsiz olduğunun göstəricisidir.

***Bunu da unutmamalıyıq ki, ermənilər dünya meydanında bu gün də baş keşişlərinin (kilsələrinin) rəhbərliyi altında, köçəriliklərini saxlamaqla fəaliyyət göstərməkdədirlər. Bu o deməkdir ki, dünyanın güclü dövlətləri, dünyaya səpələnmiş ermənilərin özləri də daxil, baş keşişin hər bir an partlaya bilən terrorçu təşkilatlarının təsiri altında qalmaqdadırlar. Bu isə onların birliyini ortaya qoyur. Biz bunu indiki Dağlıq Qarabağ müharibəsində hiss edirik....***

(davamı gələn sayımızda)